**Məşvərət Qrupunun iclası olmuşdur**

Malayziyanın Kuala Lumpur şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən qeyri-OECD iqtisadiyyatları ilə əməkdaşlığa dair Məşvərət Qrupunun 11-ci iclası keçirilmişdir. Tədbirin təşkilatçısı OECD-nin Fiskal Məsələlər Komitəsinin qeyri-OECD iqtisadiyyatları ilə Əməkdaşlıq Şurası və Malayziyanın Daxili Gəlirlər İdarəsi olmuşdur. Ümumilikdə 11 sessiyadan ibarət tədbirin ilk iclasında Məşvərət Şurasının 2011-ci ildə keçirilən iclasının yekunları barədə qısa məlumat verilmişdir. Digər sessiyalarda isə OECD-nin Fiskal Məsələlər Komitəsi və Qlobal Forumlar çərçivəsində baş verən yeniliklər, investisiya yönümlü vergi güzəştləri, transfert qiymətləri sahəsində baş verən yeniliklər, qanunsuz maliyyə axınlarının qarşısının alınmasına dövlət yanaşması, vergi və bərabərsizlik mövzularına həsr olunan müzakirələr keçirilmişdir. OECD-nin 2011-ci il üçün Qlobal əlaqələr proqramının dəyərləndirilməsi və 2012-ci il proqramından gözlənilən nəticələrə həsr edilən sessiyalarda bildirilmişdir ki, ötən il ərzində 75 müxtəlif formatlı tədbir keçirilmiş, bu tədbirlərdə 94 ölkədən 1500 nümayəndə iştirak etmiş, tədbirlərə 17 müxtəlif ölkə ev sahibliyi etmişdir. Tədbirlər daha çox transfert qiymətləri, vergi sazişləri, çoxmilli müəssisələrin auditi və məlumat mübadiləsi mövzularını əhatə etmişdir.
Ölkəmizi sözügedən tədbirdə Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəisi səlahiyyətlərinin müvəqqəti icraçısı İlqar Əkbərli və Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Rüfət Hacıyev təmsil etmişlər.